UOT 94

MƏMMƏDAĞA BAXIŞOV
Bakı Dövlət Unuversiteti,
Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti
mamamadağabaxışov@bsu.edu.az

AVROPA İTTİFAQININ ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/98-102

Məqalə Avropada və dünyada beynəlxalq münasibətlərə böyük təsir göstərən Avropa İttifaqının əsas fəaliyyət istiqamətlərinə həsr olunub. Məqalədə Avropa İttifaqının uğurları, iqtisadi inteqrasiya üçün ümumi çərçivənin formalaşdırılması və onun iqtisadi siyasətləri, iqtisadi və valyuta birliyinin yaradılması, vahid pul siyasəti, ümumi ticarət, investisiya siyasəti və digər məsələlər araşdırılır. Müəllif Avropa İttifaqının ümumi kənd təsərrüfatı, regional, enerji siyasəti, daxili işlər və ədliyyə sahəsində fəaliyyətinə xüsusi diqqət yetirir.

Açar sözlər: iqtisadi inteqrasiya, Avropa İttifaqı, ümumi bazar, vahid gömrük vergisi, kənd təsərrüfatı və region siyasəti, enerji siyasəti, daxili işlər və ədliyyə.

Giriş. Müasir dövrdə Avropa və dünya siyasətinə böyük təsir göstərən Avropa inteqrasiyasının əsas sahələrini iqtisadi, siyasi və hüquqi inteqrasiya təşkil edir. Avropa İttifaqının əsas fəaliyyət istiqamətləri bu sahələrə tam uyğundur. Avropa İttifaqının ən mühüm nailiyyətləri iqtisadi sahədə qazanması şübhəsizdir. Qərbi Avropa inteqrasiyası məhz iqtisadi sahədən başlamışdı, həm də iqtisadiyyatın əsasında inteqrasiya digər sahələrə yayılmışdı. Başqa sözlə, iqtisadi sahə inteqrasiyanın digər istiqamətlərə doğru genişlənmə və dərinləşməsinin bazası olmuşdu.

Əmtəələrin, xidmətlərin, pulların və işçi qüvvəsinin sərbəst hərəkətini nəzərdə tutan ümumi bazar Avropa İttifaqında iqtisadi fəaliyyət üçün oxşar şərait yaratmışdı. Avropa İttifaqının sənədlərində qeyd edilib ki, təşkilat təkcə ümumi bazarın deyil, həm də vahid daxili bazarın yaradılmasına çalışır. Məqsəd Avropa İttifaqına daxil olan bütün ölkələrin bazarlarında iqtisadi fəaliyyət üçün maksimum eyni şəraitin yaradılmasıdır [8, s.255].

Əsas. Avropa İttifaqı çərçivəsində iqtisadi və valyuta ittifaqı fəaliyyət göstərir. Avropa İttifaqına daxil olan ölkələr ümumi iqtisadi və vahid-pul kredit siyasəti həyata keçirir. Ümumi iqtisadi siyasət iqtisadiyyat və maliyyə Nazirləri Şurası və Avropa İttifaqının Komissiyası tərəfindən həyata keçirilir. Bu orqanlar Avropa İttifaqının üzvü olan ölkələr üçün iqtisadi siyasətin əsas istiqamətlərini müəyyən edir və əsas makroiqtisadi göstəricilərin monitorinqini həyata keçirir. 1997-ci ildə Avropa İttifaqının rəhbərliyi Sabitlik və artım paktı qəbul etdi. Bu sənədə görə iki əsas meyara əməl edilməli idi: 1.Büdcə kəsiri üç faizdən, dövlət borcu isə ölkənin məcmu ictimai məhsulunun 60%-dən çox olmamalı idi. Bu tələbləri pozan ölkələr bir il ərzində büdcə intizamına əməl etmək üçün tədbirlər həyata keçirməli idi. Həmin tələbləri uzun müddət ərzində pozan ölkələrə qarşı iqtisadi sanksiyalar tətbiq edilməli idi.

XXI əsrin əvvəllərində iqtisadi inkişafın zəifləməsi nəticəsində Avropa İttifaqına daxil olan ölkələrin yarısı, o cümlədən AFR və Fransa Sabitlik və Artım paktına əməl etmrdi. 2005-ci ildə AFR və Fransanın köməyi ilə Sabitlik və Artım paktında dəyişiklik edildi və tələblər bir qədər zəiflədi [1, s.274]. Təşkilata üzv ölkələrin büdcə və maliyyə intizamının aşağı səviyyədə olması və makroiqtisadi göstəricilərin monitorinqi sahəsində Avropa İttifaqının imkanlarının zəifləməsi 2008-2010-cu illərdə Avropa borc böhranının əsas səbəblərindən biri oldu. Bir sıra islahatlardan sonra Avropa İttifaqının ümumi iqtisadi siyasətinə 2011-2014-cü illərdə fiskal ittifaq əlavə edildi.

Fiskal ittifaq Avropa İttifaqının Komissiyasına illik milli büdcələrə nəzarət etmək səlahiyyəti və tövsiyyələrə əməl etməyənlərə təzyiq göstərmək imkanı verirdi. 2016-cı ildə ümumi iqtisadi siyasətə maliyyə ittifaqı əlavə edildi [6, s.210]. Məqsəd Avropa İttifaqının bütün maliyyə sisteminə, iri bankların fəaliyyətinə və əmanətlərin sığortalanması sisteminə nəzarət etmək idi. 2014-cü ildə imzalanmış büdcə paktı ilə kəsirli büdcələrin qəbul olunması qadağan edildi.

Avropa İttifaqına daxil olan ölkələr oktyabrın 15-nə dək Avropa İttifaqının Şurasına və Komissiyasına öz büdcə layihələrini göndərir. Büdcə paktına əməl etməyənlərə qarşı sanksiya tətbiq edilməli idi. Ölkə ümumi məhsulun 0,2 - 0,7%-i həcmində cərimə ödəməli, Avropa fondlarından ödəmələr dayandırılmalı, Avropa İttifaqı və Avropa Mərkəzi Bankı daha ciddi monitorinq keçirməli və Avropa İnvestisiya Bankından kredit verilməsinə qadağan qoyulmalı idi. Avropa İttifaqına daxil olan bir sıra inkişaf etmiş ölkələr də müntəzəm şəkildı büdcə paktını pozur.

2018-ci ildə Avropa İttifaqının Komissiyası İtaliyaya qarşı sanksiya tətbiq etməyə cəhd göstərdi. İtaliya 2019-cu il üçün büdcə layihəsində büdcə kəsirini 2,4% göstərmişdi [8, s.189]. İtaliya hökuməti Avropa İttifaqını tənqid edir və təşkilatdan tələblərini azaltmağı tələb etmişdi. İtaliyanın 2020-ci il üçün dövlət büdcəsində kəsir 2,1% göstərilmişdi və yenə Avropa İttifaqı tərəfindən tənqid edildi. 2019-cu ilin dekabrında İtalyanın nümayəndəsi P.Centiloni Avropa İttifaqının komissiyasında iqtisadiyyat üzrə komisar vəzifəsinə təyin edilmişdi.

Avropa İttifaqı çərçivəsində vahid pul-kredit siyasətini Frankfurtda yerləşən Avropa Mərkəzi Bankı həyata keçirir. Bu funksiya həm də Avropa Mərkəzi Banklar sisteminə həvalə edilmişdir. Həmin sistemə Avropa Mərkəzi Bankı və üzv ölkələrin milli dövlət bankları daxildir. Avropa Mərkəzi Bankının əsas vəzifəsi avrozonada qiymətlərin sabitliyinin təmin edilməsidir. Avropa Mərkəzi Bankı həm də avronun emissiyası, avrozonaya daxil olan ölkələrdə qızıl ehtiyatlarının idarə edilməsi və əsas faiz dərəcələrinin təyin edilməsi ilə məşğul olur. Vahid valyutanın tətbiqi qarşılıqlı ticarətdə yaranan çoxsaylı ixtilafları aradan qaldırdı. Avropa İttifaqının vahid valyutası olan avro dövriyyəyə köçürmə ödəniş vəsitəsi kimi 1999-cu ildə, nəqd hesab vasitəsi kimi 2002-ci ildə buraxıldı [9, s.156]. Avrozonanın iştirakçıları arasında meydana çıxan problemləri həll etmək üçün Maliyyə Nazirləri Şurası yaradıldı.

Avropa İttifaqına daxil olan bütün ölkələr öz üzvlərinə avrozonaya qoşulmaq haqqında öhdəlik götürdü. Avrozonaya qoşulmaq üçün Maastrixt meyarlarına əməl etmək zəruridir. 2020-ci ilədək 19 ölkə Avrozonanın üzvü idi. İngiltərə və Danimarka avrozonaya qoşulmadı. Polşa, Macarıstan, Bolqarıstan və Çexiya avrozonaya qoşulmaq haqqında öhdəlik götürdü.

Avroya keçmək üçün Maastrixt meyarları aşağıdakılardır: 1.Büdcə kəsiri ümumi məhsulun 3 faizindən çox olmamalıdır; 2.Dövlət borcu ölkənin ümumi məhsulun 60%-dən çox olmamalıdır. 3.Avroya münasibətdə ölkənin milli valyutasının mübadilə kursu sabit olmalıdır; 4.Qiymətlər sabit olmalıdır; 5.Ölkələrin Milli Bankları müstəqil olmalıdır. Mübadilə kursu mexanizmi milli valyutanın avroya bağlı olmasını nəzərdə tuturdu. İki il ərzində tərəddüd 15% civarında olmalı idi [3, s.128].

Avropa İttifaqının ümumi ticarət və investisiya siyasətinin vəzifəsi daxili bazarın qorunması və Avropa İttifaqı ölkələrindən məhsul ixracı üçün əlverişli şəraitin yaradılmasıdır. Avropa İttifaqının xarici ticarəti birbaşa təşkilatın rəhbər orqanlarının səlahiyyətindədir. Təşkilatın rəhbər orqanları ticarət məsələləri üzrə qanunlar qəbul edir, danışıqlar aparır və xarici ölkələrlə ticarət sazişləri imzalayır. Avropa İttifaqı məhsul və xidmət ticarətinə, əqli mülkiyyətin ticarət aspektlərinə (məsələn patenlər), dövlətlərin aldıqlarına və birbaşa xarici investisiyalarına görə məsuliyyət daşıyır.

Avropa İttifaqında vahid gömrük tarifi fəaliyyət göstərir. Bu qayda üçüncü ölkələrdən idxal edilən məhsullar üçün təşkilata üzv olan bütün ölkələr üçün vahid gömrüyü nəzərdə tutur. Bu Avropa İttifaqına şərait yaradır ki, ən əlverişli rejim tətbiq etmək haqqında Ümumdünya Ticarət Təşkilatının tələbinə əməl etməsin. Vahid kömrük vergisi daxili ticarət üçün əlverişli şərait yaradır və Avropa İttifaqı ölkələrində istehsalçıları müdafiə etmək üçün tədbirlər həyata keçirilir. Gömrük ittifaqı üçüncü ölkələrdən Avropa İttifaqının daxili bazarına məhsul ixracını məhdudlaşdırır və iqtisadiyyatın xarici rəqabətə zəif sahələrini qoruyur. Avropa İttifaqında kənd təsərrüfatı xarici rəqabətə daha həssasdır, ona görə kənd təsərrüfatı məhsulları üçün idxal gömrüyü yüksəkdir. Avropa İttifaqında ən aşağı gömrük xammal idxalı üçün müəyyən edilmişdir. Gömrük ittifaqı təşkilatın üzvü olan ölkələrə idxal edilən məhsulun kəmiyyət və keyfiyyətinə nəzarət etmək imkanı yaratdı. 1994-cü ildə Avropa İttifaqı çərçivəsində vahid daxili bazarın formalaşması başa çatdı və daha üzv ölkələrin ixrac norması müəyyənləşdirməsinə ehtiyac qalmadı [4, s.236]. Bir sıra məhsullar üçün normanı Avropa İttifaqı özü müəyyən etməyə başladı.

Avropa İttifaqında ticarətin 60%-i daxili ticarətin payına düşür. Slovakiyada istehsal edilən məhsulun 86%-i, Lüksemburq və Macarıstanda 84%-i, Polşada 81%-i, Kiprdə 48%-i, İtaliyada 51%-i, Yunanıstan və Maltada 54%-i Avropa İttifaqı ölkələrinə satılır. Avropa İttifaqın əsas ticarət tərəf-

daşları ABŞ (17%), Çin (15%), İsveçrə (7%), Türkiyə (4%), Yaponiya (3,5%)-dır. Avropa İttifaqından əsasən maşın və avadanlıq, kimya və metallurqiya məhsulları ixrac olunur. Avropa İttifaqına idxal olunan məhsullar arasında həmin məhsullar üstünlük təşkil edir.

Avropa İttifaqında inteqrasiyanın inkişaf etdiyi əsas sahə kənd təsərrüfatıdır ki, onun əsasında ümumi kənd təsərrüfatı siyasəti dayanır. Ümumi kənd təsərrüfatı siyasəti Avropa İttifaqının ərzaq təhlükəsizliyini təmin etmək, kənd təsərrüfatında çalışan əhalini müdafiə etmək və təşkilat çərçivəsində sosial-iqtisadi sabitliyi təmin etmək üçün 1962-ci ildən həyata keçirilir. Bu siyasət kənd təsərrüfatı məhsullarının istehsalını və ixracını maliyyələşdirməyi və kənd ərazilərinin hərtərəfli müdafiəsini nəzərdə tutur. Avropa İttifaqında büdcə vəsaitinin 40%-i ümumi kənd təsərrüfatı siyasətinin həyata keçirilməsinə xərclənir. Maliyyələşmə ixtisaslaşdırılmış kənd təsərrüfatı fondları vasitəsilə həyata keçirilir və fermerlərin xərcinin 40%-ini ödəyir. 2005-ci ildək ümumi kənd təsərrüfatı siyasətinin maliyyələşdirilməsini Avropa kənd təsərrüfatına Təminat Fondu həyata keçirirdi. 2005-ci ildə həmin fond iki hissəyə ayrıldı: biri kənd təsərrüfatı məhsullarının istehsalını, o birisi kənd ərazilərinin inkişafını maliyyələşdirir [5, s.406].

Avropa İttifaqının genişlənməsi təşkilatın işini artırdı. Belə ki, indi həm də Şərqi Avropa ölkələrinin kənd təsərrüfatına qayğı göstərilməli idi. Bu zaman Avropa İttifaqının əvvəlki üzvlərinin hüquqları pozulmamalı idi. 2003-cü ildən sonra Avropa İttifaqına daxil olan ölkələrin kənd təsərrüfatı üçün təşkilatın büdcəsindən ayrılan vəsait 10 il ərzində artmamalı idi. Avropa ölkələrindən Avropa İttifaqı ölkələrinə kənd təsərrüfatı məhsullarının ixracı məhdudlaşdırıldı, çünki, hələ Avropa İttifaqının standartlarına uyğun deyildi.

Region siyasəti Avropa İttifaqında həcminə görə ikinci ən çox maliyyələşdirilən sahədir. Avropa İttifaqının büdcəsindəki vəsaitin 1/3 hissəsi region siyasətinə xərclənir. Bu siyasətin məqsədi regionların iqtisadi inkişaf səviyyəsinin bərabərləşməsidir. Avropa İttifaqında regional siyasətə vəsait üç fonddan ayrılır. Mütəşəkkillik Fondu, Avropa Regional İnkişaf Fondu və Avropa Sosial Fondu. Bu fondlardan yardım adambaşına məhsul istehsalına görə Avropa İttifaqı üzrə orta göstəricilərdən geri qalan regionlara göstərilir.

Avropa İttifaqının büdcəsi milli gəlirdən (70%), gömrük vergisindən (12%) və üzv ölkələrin əlavə dəyər vergisindən ayırmalardan formalaşır (12%). Büdcə vəsaiti fondlar və məqsədli maliyyə proqramları vasitəsilə bölünür. Büdcə vəsaiti əsasən yeni iş yerlərinin yaradılmasına, iqtisadi inkişafa və investisiyalara, kənd təsərrüfatına, balıqçılıq, ətraf mühitin müdafiəsinə, müharicətin idarə olunmasına, təhlükəsizliyin pozulmasına, işsizliyin azalmasına və müdafiə xərclərinə yönəlir. Gömrük vergisinin 80%-i Avropa İttifaqının büdcəsinə, 20%-i üzv ölkələrin büdcəsinə daxil olur.

Avropa İttifaqının rəqabət siyasəti təşkilat çərçivəsində rəqabət şəraitinin eyniləşdirilməsinə, qanunsuz rəqabətin qarşısının alınmasına və ayrı-ayrı şirkətlərə dövlət yardımına nəzarətə yönəlmişdir. Nəqliyyat siyasəti isə TransAvropa nəqliyyat şəbəkəsinin inkişafına, rəqabət mühitinin yaradılmasına və nəqliyyat növlərinin şaxələndirilməsinə xidmət edir.

Enerji siyasəti Avropa İttifaqının əsas fəaliyyət istiqamətlərindən biridir. Enerji sahəsində Avropa İttifaqı əvvəldə bir sıra problemləri həll etməli idi: 1. Enerji daşıyıcıları ilə təminat yaxşılaşdırılmalı idi. 2. Enerji daşıyıcılarının qiyməti aşağı salınmalı idi. 3. Ətraf mühitin qorunmasına diqqət artmalı idi. Avropa İttifaqının enerji siyasətinin əsas vəzifəsi enerji təhlükəsizliyi, rəqabət mühitini təmin etmək və təşkilatın üzvü olan ölkələrin enerji daşıyıcıları ilə sabit təmin edilməsi idi.

Avropa İttifaqı yaradılandan sonra üç enerji paketi, yəni, Avropa İttifaqının enerji məsələləri üzrə göstərişlər paketi qəbul edildi. Birinci paket 1996-1998-ci illərdə su enerjisi və qazla təchizat haqqında idi. İkinci enerji paketi 2003-cü ildə qəbul edilmişdi. Bu sənədlərdə əsas ideya təklifləri artırmaq və enerji daşıyıcılarının dəyərini azaltmaq üçün Avropa bazarlarınada əlverişli rəqabət şəraiti yaratmaq idi. 2009-cu ildə Avropa İttifaqı üçüncü enerji paketi qəbul etdi. Bu sənədə əsasən istehlakçı enerji satan ölkəni sərbəst seçə bilərdi. Avropa İttifaqının uzunmüddətli enerji siyasətinin vəzifələri 2030-cu ilə qədərki enerji strategiyasında və 2050-ci il üçün yol xəritəsində öz əksini tapmışdı. Bu sənədlər kəmərlərin şaxələndirilməsi, enerjinin səmərəliyinin yüksəlməsi, kömrdən istifadə edilməməsi, ətraf mühitin daha yaxşı qorunması və bərpa olunan enerjidən istifadəni nəzərdə tuturdu. 2020-ci il üçün strategiya 2007-ci ildə, 2030-cu il üçün strategiya. 2014-cü ildə 2050-ci il üçün strategiya 2011-ci ildə qəbul edilmişdi [7, s.196].

Daxili işlər və ədliyyə sahəsində fəaliyyət uzun müddət Avropa İttifaqına daxil olan ölkələr arasında hökumətlərarası əməkdaşlıq sahəsi idi. Bu sahədə əməkdaşlıq 1975-ci ildən 1970-ci illərin birinci yarısında Avropa ölkələrində törədilən terror aktları ilə əlaqədar olaraq baxılmışdı. 1972-ci ildə Almaniyada keçirilən olimpiada zamanı Münhendə terrorçular çoxlu insan girov götürmüşdü. 1975-ci ildə Romada AİB-ə daxil olan olkələrin daxili işlər və ədliyyə nazirlərinin iştirakı ilə hökumətlərarası TREVI qrupu yaradıldı. 1992-ci ildə daxili işlər və ədliyyə sahəsində əməkdaşlıq Avropa İttifaqının üçüncü dayağı oldu. Lissabon müqaviləsinə görə azadlıq, təhlükəsizlik və ədalət məkanının formalaşması ilə bağlı bütün məsələlər Avropa İttifaqının səlahiyyətinə verildi. Avropa İttifaqının rəhbər orqanları həm Aİ, həm də üçüncü ölkə vətəndaşlarının Avropa İttifaqı ərazisində sərbəst yerdəyişmənin ümumi qaydalarının formalaşdırılması, mühacirət siyasətinin, sığınacaq verilməsi qaydalarının hazırlanması, məhkəmə qərarlarının qarşılıqlı tanınması əsasında Avropa hüquq məkanını yaradılması ilə məşğul olur [2, s.303]. Avropa İttifaqının rəhbər orqanları həm də təşkilata daxil olan ölkələrin təhlükəsizliyinin təmin olunması ilə məşğul olur, terrorizmə, mütəşəkkil cinayətkarlığa və qeyri-leqal mühacirətə qarşı tələblər həyata keçirir.

Nəticə. Daxili işlər və ədliyyə sahəsində vəzifələri yerinə yetirmək üçün Avropa İttifaqı bir sıra agentlik yaradıldı. 1999-cu ildə yaradılmış Avropa Polis İdarəsi eyni vaxtda bir neçə ölkənin mənafelərinə toxunan cinayətlərlə bağlı məlumat toplayıb təhlil etməkdə milli polis idarələrinə yardım göstərir. Avropa Ədliyyə İdarəsi 2002-ci ildə yaradıldı və cinayətlərin araşdırılması ilə məşğul olan idarələrin fəaliyyətini əlaqələndirir. Onun tərkibinə Avropa İttifaqına üzv ölkələrin prokuror, hakim və polisləri daxildir. Avropa Ədliyyə İdarəsi ağır cinayətləri, möhtəkirlik, çirkli pulların yuyulması və korrupsiya hallarının araşdırılması ilə məşğul olur. Xarici sərhədlərin əlaqələndirilməsi üzrə Agentlik Avropa İttifaqının xarici sərhədlərinin mühafizəsi sahəsində üzv ölkələrə kömək edir. 1998-ci ildə yaradılmış Möhtəkirliyə qarşı mübarizə İdarəsi Avropa İttifaqı ölkələrinə qarşı maliyyə cinayətlərinin araşdırılması ilə məşğul olur. Avropa İttifaqı çərçivəsində iqtisadi və hüquqi siyasətin həyata keçirilməsinə və Avropa İttifaqının mənafeylərinin reallaşması və dünyada mövqelərinin möhkəmlənməsi üçün təşkilat həm də ümumi xarici və təhlükəsizlik siyasəti və bu sahədə ardıcıl fəaliyyəti ilə səmərəli yardım göstərir.

ƏDƏBİYYAT

1. Фененко А.В. Современная история международных отношений. 1991-2018. М., Аспект Пресс, 2018, 456 с.
2. Бабынина Л.О. Гибкая интеграция в Европейском Союзе: теория и практика применения. М., ЛИИ, 2012, 374 с.
3. Буторина О.В. Международные валюты: интервенции и конкуренция. М, Деловая литература, 2003, 352 с.
4. Bretherton C. Voqler J. The European Unton as a Clobal Acton/ London, Routledge, 2006, 314 p.
5. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Bakı, Az.TU-nun mətbəəsi, 2012, 408 s.
6. Щемятенко В.Г. Европейская интеграция. Учебное пособие. М, Международные отношения, 2003, 400 с.
7. Мутагиров Дж.З. История и теория международных отношений. Международные политические институты. М., Юрайт, 2018, 439 с.
8. Буторина О.В. Европейская интеграция. М., Аспект Пресс, 2018, 684 с.
9. Современные международные отношения (1991-2020). Отв.ред. Б.Ф.Мартынов. М., АСТ, 768 с.

МАМЕДАГА БАХЫШОВ
Бакинский Государственный Университет,
доцент кафедры Новой и Новейшей истории стран Европы и Америки

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ДЕЯТЕЛЬНОСТИ ЕВРОПЕЙСКОГО СОЮЗА

Статья посвящена основным направлениям деятельности Европейского Союза, которые оказывают большое влияние на международные отношения в Европе и мире. Статья интерпретируется на основе фактов успеха Евросоюза, формирования общей основы экономичес-

кой интеграции и его экономической политики, создания экономического и валютного союза, единой денежно-кредитной политики, единой торговли и инвестиционная политика и общая углеродная политика. В статье автор уделяет особое внимание деятельности Евросоюза в сфере общего сельского хозяйства, региональной, энергетической политики, внутренних дел и юстиции.

Ключевые слова: экономическая интеграция, Европейский Союз, общий рынок, единый налог на выбросы углерода, сельскохозяйственная и региональная политика, энергетическая политика, внутренние дела и правосудие.

MAMEDAGA BAKHYSHOV
Baku State University,
Faculty of History, Associate Professor of the Department of New and Contemporary History of European and American Countries

MAIN ACTIVITIES OF THE EUROPEAN UNION

The article is devoted to the main activities of the European Union, which have a great influence on international relations in Europe and the world. The article is interpreted on the basis of the facts of the success of the European Union, the formation of a common framework for economic integration and its economic policies, the creation of an economic and monetary union, a common monetary policy, a common trade and investment policy and a common carbon policy. In the article, the author pays special attention to the activities of the European Union in the field of general agriculture, regional and energy policy, internal affairs and justice.

Keywords: economic integration, European Union, common market, single carbon tax, agricultural and regional policy, energy policy, home affairs and justice.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Elmira Hüseynova, t.e.d. Sevinc Yusifzadə.